*AMEA Nəsimi adına Dilçilik İnstitutu,*
*Dilçilik araşdırmaları, 2025, №2* *ISSN: 2664-5432*
*Səhifə: 60-65*
https://doi.org/10.59849/2664-5432.2025.2.60

**Lalə QURBANOVA***

# DİL VƏ MƏDƏNİYYƏT


## XÜLASƏ

İnsanın danışdığı dili onun milli-mədəni xüsusiyyətlərinin göstəricisidir. Kommunikasiya zamanı insanın nitqində onun dünya görüşü, milli-mədəni inancları və s. xüsusiyyətləri əks olunur. Dilçilikdə dil və təfəkkür, dil və mədəniyyət, dil və nitq və s. kimi məsələlərin geniş tədqiqi və bu tədqiqatların bu günə qədər mübahisəli olması məsələnin aktuallığını şərtləndirir. Son illərdə dünyada və Azərbaycanda bu məsələlərlə bağlı yeni sahələrin tədqiqi genişlənib və sürətlə inkişaf etməkdədir. Məqalənin əsas məqsədi dil və mədəniyyətin kommunikasiyada bərabər iştirak etməsini, müşahidə və təsviri yolla bir daha təhlil etməkdir. Məlum olduğu kimi, dil təfəkkürün məhsulunu üzə çıxardığı kimi, kommunikasiyada insanın daxili dünyasının əks etdirir. Dil və mədəniyyət birliyi kommunikasiyada verbal və ya qeyri-verbal olaraq insani xüsusiyyətləri ortaya qoyur. Dil mədəniyyəti cəmiyyətin əsas faktoru olan insanın müxtəlif xüsusiyyətlərini özündə cəmləşdirir. Digər tərəfdən isə dil mədəniyyətin mənbəyi sayılır və dil həm də mədəniyyətin mahiyyətinin özüdür. Nəticədə, aydın olur ki, mədəniyyətin təkamülündə dilin rolu böyükdür və insanın mədəni davranış dəyişdikcə tədricən dilin işlənmə oriyentasiyasıda dəyişir.


***Açar sözlər:*** *dil, mədəniyyət, kommunikasiya, dil işarələri, dil kimliyi, dil funksiyaları.*

Dil, kommunikasiya və mədəniyyətdən danışdıqda ilk olaraq sosial aləmdə dilin funksiyalarını nəzərdən keçirmək lazımdır. Dil insan həyatında və eləcədə, cəmiyyətdə müxtəlif funksiyaları yerinə yetirir. Bunlardan birincisi o insanlar arasında və cəmiyyətdə fikir mübadiləsi və ya ünsiyyət yaratmaq funksiyasını həyata keçirir. Dilin funksiyasından biri də insanlar tərəfindən əşya və predmetləri adlandırmaqla yanaşı, baş verən hadisələri ifadə etməkdən ibarətdir, bu da subyektiv faktorlardan asılı deyil və o tarixi səciyyə daşıyır. Dil vasitələri insanın fikir söyləmək funksiyasını yerinə yetirir və o bir başa insanın təfəkkür fəaliyyəti ilə bağlıdır. "Dillə təfəkkürün əlaqəsi barədə danışarkən həmin "əlaqə" sözü o mənada işlədilir ki, burada nə dilsiz təfəkkürdən, nə də təfəkkürsüz dildən söhbət gedə bilər, yəni hər iki mövzu tamamilə istisna olunur"[Cəfərov: 2023, s.69].

"Dil, bir tərəfdən öz struktur vahidləri olan forma və nitq söyləmləri ilə birlikdə təfəkkür proseslərinin son məhsulu kimi meydana çıxır, ikinci bir tərəfdənsə, bir güzgü kimi məhz dərk olunmuş gerçəklik elementlərini əks etdirir. Dilin

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Hind-Avropa dilləri şöbəsi. Email: lala.qedirova@mail.ru

həm yaranması, həm də funksiyası sözün tam mənasında linqvo-psixoloji mahiyyət daşıyır [Əsgərov:2015, s. 92].

Dil müəyyən bir mədəniyyətə mənsub olan insanlar tərəfindən başa düşülən simvolik sistemdir, dil və mədəniyyət bir-biri ilə sıx bağlı olub normal kommunikasiyanın yaranmasına səbəb olur. Dil sosial mühitdə insanlar arasında ünsiyyət vasitəsi olub, mədəni reallığı ifadə edir. Müxtəlif mədəniyyətə malik sosial mühit dilin kateqoriyaları və strukturunda fərqliliyə gətirib çıxarır. Təbii ki, fərqli mədəniyyətə malik insanların təfəkkürü və düşüncəsi də fərqlidir. İnsan nitq söyləməzdən əvvəl onun düşüncələri şüurda formalaşır və şüuraltında toplanaraq məlumata çevrilir, sonra dinləyiciyə ötürülür. Belə ki, dil kommunikasiya vasitəsi olub, həm də idrak proseslərini həyata keçirir, dil və təfəkkür vəhdəti cəmiyyətin dilinin və mədəni kommunikasiynın formalaşmasına xidmət edir.

Hər bir millətin dili onun kimliyinin göstəricisidir və dil millətin əsas atributlarından biridir. İnsanların qarşılıqlı münasibəti və ya davranışı dil və kommunikasiyadan asılıdır. Milli mədəniyyətin inkişafında dilin rolu danılmaz bir faktdır. Dil və mədəniyyətin əlaqəsindən danışan alimlərin dili mədəniyyətin bir hissəsi sayır, lakin onların fərqli xüsusiyyətlərə malik olduğunu deyirlər. Dili mədəniyyətin təsiri altında sayan alimlər deyirlər ki, insana xas olan mədəniyyət dildə öz əksini tapır və əksinə, dil insanın düşüncə tərzinə təsir edir. Dil və mədəniyyətdən danışdıqda nitq mədəniyyətindən yan keçmək olmur.

A.Axundov bu barədə deyir ki, "Dil və mədəniyyət probleminin ən mühüm məsələlərindən biri də nitq mədəniyyəti məsələsidir. Elmi-texniki inqilabın müvəffəqiyyətlə həyata keçirilməsində və yeni insan tərbiyəsi kimi çox mühüm işdə normalaşdırılmış dil quruculuğunun, başqa sözlə, nitq mədəniyyətinin durmadan yüksəldilməsinin böyük əhəmiyyəti vardır" [Axundov:1992, s.9].

Nitq mədəniyyəti barədə danışan İ. Hacıyeva deyir ki, nitq mədəniyyəti onun kommunikativ keyfiyyətinin toplusu-düzgünlük, dəqiqlik, ifadəlik və sairədən ibarətdir. Nitq mədəniyyəti, hər şeydən əvvəl, insanın ümumi mədəni inkişafının, mənəvi yetkinliyinin əsas göstəricilərdən biridir. Yüksək nitq mədəniyyəti təfəkkür mədəniyyəti ilə sıx bağlıdır [Hacıyeva: 2004, s.45].

Dil və təfəkkür bərabərliyi idrak proseslərinin mərkəzində durur. Danışanın nitq fəaliyyəti dilin təbiətinin aparıcı dinamikasını təşkil edir. Danışığın əsas motivi niyyətdir, bu da nitqin formalaşmasına xidmət edir. Yaranan hər bir nitq məqsədli və ya qeyri-məqsədli şəkildə həyata keçirilir. Beləki, dil və nitqdən danışdıqda aydın olur ki, dilin bütün ünsürləri nitqdə öz əksini tapır, yəni nitq fəaliyyəti fonem, morfem, söz, cümlə, mətn və s. kimi dil vahidlərinin törəməsi ilə reallaşır. Dil və nitqin formal xarakter daşıması cəmiyyətin sosio-psixoloji və milli-mədəni dəyərlərini üzə çıxarır və dil və təfəkkür birliyinin məhsulu olan nitqin mədəni formalaşmasında sosio-psixoloji və milli-mədəni dəyərlər böyük rol oynayır.

Dilin sosial-psixoloji amilləri insanı tanıtma və tanıma xüsusiyyətlərinə malikdir və o bir tərəfdən də düşüncəni müəyyən edir, digər tərəfdən də düşüncəyə təsir edir. Dilin mahiyyətindən danışan N. Cəfərov əsasən üç fakt üzərində dayanır: "1)

Dil və təfəkkür; 2) Dilin funksiyaları; 3) Dil işarələr sistemi kimi. Bu məsələlərdən birincisi dili onun üçün ən ayrılmaz, ən munis olan “ daxili”, ikincisi xeyli dərəcədə kənar, xeyli dərəcədə ictimai olmaqla “xarici” tərəflərilə izah edirsə, üçüncüsü dilin sistem-strukturu, yəni bilavasitə “özü” barədə konkret təsəvvür yaradır” [Cəfərov: 2023, s.67].

Məlumdur ki, dil maddi deyil o hər bir millətə aid mənəvi bir formadır. İşarələri dil sisteminin simvolu olub, ixtiyari, məhsuldar, dinamik, rəngarəng, humanist xüsusiyyətlərə malikdir. C.Babayev deyir: “Danışıq fəaliyyətindən fərqli olaraq, dil (nitq) davranışı adi, avtomatlaşmışdır, motivlər və məqsədlər şüurun dərin qatlarında qərarlaşır” [Babayev :2024, s.62].

Doğrudanda, dil bir sistem olub bir sıra komponentlərdən özündə birləşdirir, o bir sistem kimi fonologiya, morfologiya, sintaksis və leksikadan və s. nitqi formalaşdıran predmetlərdən ibarətdir və insan nitqi dilin bu parametirləri ilə baş tututr. C.Babayev kommunikasiya aktında danışıqla təsirin baş tutması üçün dilin bütün səviyyələrinin-1)fonoloji; 2) prosodik (intonasiya, fasilə, səsin tembri və s.); 3) somatik; 4) leksik-semantik; 5) morfoloji-sintaktik; 6) ekstralinqvistik amillərin rol oynadığını qeyd edir [Babayev: 2024, s.253]. Müəllifin sözü ilə razılaşaraq, qeyd etmək lazımdır ki, mədəni nitqin düzgün formalaşması məhz bu səviyyələrin birliyindən qaynaqlanır.

S.Hüseynov nitq mədəniyyətində orfoepiya qaydalarını əsas götürür: “Nitq mədəniyyəti altında düzgün və aydın danışıb-yazmaq sənəti, nitqdə müxtəlif dil vasitələrindən məqamında, eyni zamanda məqsədəuyğun şəkildə istifadə olunması, nitqin aydınlığı, təmizliyi, münasibliyi, imkan daxilində ifadəliliyi, sözlərin ədəbi dilin orfoepiya qaydalarına uyğunluğu nəzərdə tutulur” [Hüseynov:2010, s.18].

Deyilənlə razılaşmaq olar, ancaq nitqin mədəni təzahürü yalnız orfoepiya qaydaları ilə kifayyətlənə bilməz, bunun üçün insanın daxili dünyasının, sosio-psixoloji vəziyyəti, onun hansı mikro-mühitdə böyüməsi və yaşaması, dil barədə elmi-nəzəri və praktik olaraq biliklərə sahib olması və s. kimi keyfiyyətlər də nəzərə alınmalıdır. Bundan başqa dildə orfoepiya ilə yanaşı orfofoniya məsələsini də diqqət mərkəzində saxlamaq lazımdır.

*“Dilə bir system”* deyən Ə. Abdullayev və *suprasintaktik (aktual)* yarusu bu sistemin biri təbəqəsi kimi göstərir. O, qeyd edir ki, “Dil ümumi olaraq unikal (yalnız bir dilə xas olan xüsusiyyətlər) və universal (bütün dillərə aid xüsusiyyətlərə) xüsusiyyətlərə malikdir” [Abdullayev: 2011, s.27].

Dilin əsas funksiyası insanlararası qarşılıqlı ünsiyyət qurmaqdan ibarət, onun bu funksiyası onların bir-birinə müəyyən düşüncələri, ideyaları, anlayışları və hətta, hadisələri ətraflı çatdırmağına xidmət edir. Dil işarələrindən danışan F. Veysəlli yazır: “Dildəki işarə, deyildiyi kimi, nəyinsə əvəzində işlənir və ya ona işarə edir. İşarələyən işarələnənə ən azı dolyısı ilə ifadə etdikləri məna vasitəsilə obyektiv gerçəkliyə bağlanır” [Veysəlli: 2007, s.70-77].

Doğrudanda, dil kimə?, Nə vaxt?, Nəyi?, Hansı məqsədlə? və Harda? Çatdırmaq funksiyasını işarələyərək həyata keçirir. Dilin funksiyalarına ekstralinqvistik

aspektdən yanaşdıqda, ona danışan və dinləyən, məlum mövzu, söhbətin məqsədi, kod və dekodlaşma kimi müxtəlif rakurslardan baxmaq lazımdır. Dil işarələri koqnisiyadan keçərək formalaşır və kommunikasiya zamanı məlum funksiya yerinə yetirirlər.

N.Cəfərov dil işarələrindən danışaraq qeyd edir: "Şüur, təfəkkür prosesləri, idrak texnologiyaları ilə dil arasındakı çox sıx əlaqələri araşdırmaq təcrübəsinə malik koqnitiv dilçilik informasiyanın kodlaşdırılmasında, eləcə də transformasiyasında işarələr sistemi kimi dilin roluna böyük maraq göstərir" [Cəfərov: 2023, s.41]

C.Babayev yazır: "Danışanın dil pasportu-adresantın danışan zaman avtomatik, özünün də bilmədən verdiyi informasiyadır. İnsanın dil pasportuna istinadən onun ümumi mədəniyyəti, əxlaq və tərbiyəsi haqqında mühakimə yürütmək olar" [Babayev: 2024, s.63].

Müəllif tamamilə doğru olaraq qeyd edir ki, insanın bütün hal–vəziyyəti onun nitqində kommunikasiya zamanı özünü büruzə verir və danışanın verdiyi informasiyada onun düşüncələri həm verbal həm də qeyri-verbal kommunikativ vasitələr olaraq özünü göstərir. "Kommunikasiya fərdlərin ümumi işarələr sistemi, o cümlədən dil işarələri vasitəsi ilə informasiya mübadiləsidir. Kommunikasiya əsası səmərəli danışıq resurslarının seçilməsindən ibarət strateji prosesdir. Kommunikasiya qarşılıqlı anlaşmaya əsaslanan, bir şəxsin başqasına və ya başqalarına informasiyanın ötürülməsindən ibarət iki və daha artıq fərd arasında ünsiyyət aktıdır. Kommunikasiya optimal dil vasitələrinin seçilməsi prosesidir" [Babayev:2024, s.61].

Belə ki, kommunikasiya zamanı dinləyici danışanın nitqindən onun qəzəbli, kədərli və ya xoşbəxt olduğunu anlaya bilir. Digər tərəfdən dil işarələri dinləyici və danışan arasında davranışı tənzimləyən, direktiv funksiyanı yerinə yetirir. Dilin funksiyaları makro və mikro olmaqla iki yerə ayrılır ki, makro funksiya dilin emotiv, direktiv, informasiya ötürmək, metallinqvistik, poetik, kontekstual və s. funksiyaları yerinə yetirir. Dilin malik olduğu mikro funksiya isə makro funksiyanın hər bir kateqoriyasının kommunikativ formasıdır.

"Dil mədəniyyətinin inkişafı həm dildaxili, həm də dilxarici amillərdən çox asılıdır. Birincisi dilin daxili inkişaf qanunları ilə ikincisi isə dilin funksional imkanları, yayılma mühiti ilə bağlıdır [10, s.122].

N.Məmmədli qeyd edir ki, "Dil işin mahiyyətini izah etmək üçün zəruri və lazimi sözləri tapmaqda əvəzsiz bir ünsiyyət vasitəsidir. Ünsiyyətin qarşıya qoyduğu vəzifələrin maksimum səmərə ilə yerinə yetirilməsi danışıq mədəniyyətinin kommunikativ aspektini əhatə edir" [Məmmədli: 2022, s.432].

Dil insanın şəxsi kimliyinin göstəricisidir, insanın şəxsi mövqeyi və onun keçirdiyi hisslər nitqində öz əksini tapır. Dil digər tərəfdən manipulyasiya etmə, nitqin tənzimləmə, faktları təqdim etmək, interaktiv əlaqə yaratmaq, evrestik, şəxsi və təsəvvür etmək funksiyalara da malikdir. Bütün bu funksiyaların həyata keçməsində sosiumun mədəniyyətinin rolu danılmazdır və bu iki-dil və mədəniyyət birliyi insan kimliyini ortaya qoyur.

F.Cahangirov dil və mədəniyyət barədə fikirlərini belə izah edir: "Dil-mədəniyyətin yarısıdır, onun məhsulu və onun əsasıdır. Dil mədəniyyətdən asılı olmadan mövcud deyil. O, mədəniyyətin qırılmış bir hissəsi deyil, müəyyən vaxtda və müəyyən yerdə yaşayan xalq mədəniyyətinin vacib bir hissəsini toplayır. Dil, bütün nəsillərin yaratdığı nəhəng işlər, bütün incəsənətlər içərisində ən kütləvisidir. Sosial davranışın hər bir mədəni stereotipi, hər bir aktı komponent tərkibində kommunikasiyaya daxil olur" [Cahangirov: 2014, s.23].

Beləliklə, dil insanın ehtiyaclarına uyğun olaraq istifadə olunan müəyyən funksiyaları yerinə yetirir, yəni insan dil vasitəsilə özünü ifadə edir, onun bütün ünsürləri kommunikasiya zamanı iştirak edir, o mühitə və ya şəraitə uyğun sosial inteqrasiyanı təşkil edir və sosial fəaliyyətin əsas vasitəsidir. Dil kommunikasiya vasitəsi olub insanlararası ünsiyyəti formalaşdırır; dil insanın elmi səviyyəsini əks etdirir və natiq olmasını formalaşdırır; dil yaxşı danışmaq bacarığını formalaşdırır; dilin bütün vasitəsitələri ilə insan rəqibinə qarşı özünümüdafiəni formalaşdırır; dil bütün sahələrdə mənfi və müsbət reklam edici funksiyaya malikdir (L.Q).

Dil insanların fikir və düşüncələrini başqalarına çatdırmaq üçün istifadə edilən simvollar sistemidir. Dil mədəniyyətə təsir edir və ya əksinə mədəniyyət dillə təsir edərək onu formalaşdırır. Deməli, insana məxsus dil və mədəniyyətin qarşılıqlı əlaqəsi kommunikasiya zamanı aydın olur və dil ünsürləri danışanın həmsöhbət olduğu insanın düşüncəsinin arxasında nə olduğunu kommunikasiya zamanında üzə çıxarır. Beləliklə, dil mədəniyyəti və düzgün kommunikasiyanın qurulması hər bir millətin milliliyinin göstəricisidir.

**ƏDƏBİYYAT:**


1. Abdullayev Ə. Aktual üzvlənmə, mətn və diskurs, Bakı, "Zərdabi LTD" MMC, 2011, 272 s.
2. Axundov A. Dil və mədəniyyət, Bakı, "Yazıçı" nəşriyyatı, 1992, 192 səh.
3. Babayev C. Praqmalinqvistikanın əsasları, Bakı, "Mütərcim", 2024, 336 səh.
4. Cahangirov F. Dil və mədəniyyət, Bakı, "Elm və təhsil", 2014, 308 səh.
5. Cəfərov N. Ümumi dilçilik (Dərslik), Bakı, "Təhsil", 2023, 216 səh.
6. Əsgərov M. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi, Bakı, "Elm və Təhsil", 2015, 192 səh.
7. Hacıyeva İ. Nitq mədəniyyəti məsələləri (Vəsait), Bakı, "İqtisad Universiteti nəşriyyatı", 2004, 152 səh.
8. Hüseynov S. Nitq mədəniyyəti (Dərslik), Bakı, "Yazıçı" nəşriyyatı, 2010, 240 səh.
9. Məmmədli N. Azərbaycan dili və nitq mədəniyyəti (norma, nitq mədəniyyəti sahələri və nitqə verilən tələblər), Bakı, "Elm və təhsil", 2022, 512 səh.
10. Nitq mədəniyyəti məsələləri, Redaktor: Z.İ. Budaqov. Bakı, "Elm", 1988, 268 səh.
11. Veysəlli F. Dil, Bakı, "Təhsil" NPM, 2007, 298 səh.

## LANGUAGE AND CULTURE
## SUMMARY

Language is a means of communication, which forms interpersonal communication, reflects the level of education of a person and forms his ability to speak. Language forms society's ability to speak well and performs an advertising function in all spheres. The relationship between language and human culture becomes clear in the process of communication. In the process of communication, the elements of language reveal what is hidden behind the speaker's thoughts. In general, it becomes clear from the views of scientists that the unity of language and culture determines the level of development of society. Appropriate and correct use of all elements of language improves the level of communication. The language of each nation and the national-cultural values to which it belongs are indicators of its national identity. Thus, the formation of language, culture and correct communication is an indicator of the mentality of the nation.


**Keywords:** *language and culture, communication, linguistic signs, language and perception, macro and micro language functions.*


## ЯЗЫК И КУЛЬТУРА
## РЕЗЮМЕ

Язык — это средство общения, которое формирует межличностное общение, отражает уровень образования человека и формирует его способность говорить. Язык формирует способность общества хорошо говорить и выполняет рекламную функцию во всех сферах. Взаимосвязь языка и культуры человека становится ясна в процессе общения. В процессе общения элементы языка раскрывают то, что скрывается за мыслями говорящего. В целом из взглядов ученых становится ясно, что единство языка и культуры обуславливает уровень развития общества. Уместное и правильное использование всех элементов языка повышает уровень общения. Язык каждой нации и национально-культурные ценности, к которым она принадлежит, являются показателями ее национальной идентичности. Таким образом, формирование языка, культуры и правильной коммуникации является показателем менталитета нации.


**Ключевые слова**: *язык и культура, коммуникация, языковые знаки, язык и восприятие, макро и микро функции языка.*